# Rüstəm Kamal - 60

*Qazaxda tanınmış tənqidçi, ədəbiyyatşünas alim, filologiya elmləri doktoru, professor Rüstəm Kamalın 60 illiyinə həsr olunmuş yubiley tədbiri keçirilib.*



Noyabrın 29-da Qazax Rayon İcra Hakimiyyəti və Azərbaycan Yazıçılar Birliyi Qazax Bölməsinin birgə təşkilatçılığı ilə tanınmış tənqidçi-ədəbiyyatşünas alim, filologiya elmləri doktoru, professor Rüstəm Kamalın (Rüstəm Kamal oğlu Rəsulov) 60 illiyinə həsr olunmuş yubiley tədbiri keçirilib.

Qazax şəhər Ədəbiyyat Muzeyində keçirilən yubiley tədbirində Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov, icra aparatının məsul şəxsləri, "Qazax Xeyriyyə" İctimai Birliyinin üzvləri, AYB Qazax Bölməsinin üzv və fəalları, Bakı Dövlət Universiteti Qazax filialının, Qazax Dövlət Sosial-İqtisad Kollecinin müəllim və tələbələri, mədəniyyət işçiləri, ziyalılar, ağsaqqallar, Bakı və Gəncə şəhərlərindən, Ağstafa və Ağdaş rayonlarından gələn qonaqlar iştirak ediblər.

Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov giriş sözü ilə çıxış edərək tədbir iştirakçılarını, qonaqları salamlayıb, yubilyarı 60 illiyi münasibətilə təbrik edərək ona cansağlığı, uzun ömür və ən xoş arzularını çatdırıb. Rayon rəhbəri fəaliyyətə başladığı ilk gündən Qazax ziyalılarına, şairlərinə, saz, söz adamlarına, alimlərə daim qayğı göstərildiyini bildirib. İlk gündən bütün sahələrdə, eləcə də Qazaxdan kənarda yaşayıb, ürəyi bu torpaqla döyünən qazaxlı ziyalıların dəstəyini hiss etdiyini qeyd edən icra başçısı professor Rüstəm Kamalın da məhz həmin ziyalıların sırasında dayandığını söyləyib. "Bugünkü yubiley tədbiri bizə imkan yaradacaq ki, Rüstəm Kamal yaradıcılığına, onun fəaliyyətinə bir daha nəzər yetirək, onu daha yaxından tanıyaq, yaradıcılığını dəyərləndirək" - deyən icra başçısı dəyərli ziyalımızın keçdiyi ömür yolunun, alim və ziyalı kimi ədəbiyyatımıza verdiyi töhfələrin gənc yazarlara, bugünkü gəncliyə nümunə olduğunu bildirib.

Azərbaycan Yazıçılar Birliyi Qazax Bölməsinin sədri, Əməkdar incəsənət xadimi, şair Barat Vüsal çıxış edərək yubilyarın ünvanına təbriklərini və səmimi arzularını səsləndirib. Ölkə Prezidenti İlham Əliyev, birinci vitse-prezident Mehriban Əliyeva tərəfindən ziyalılara olan dövlət qayğısından söz açan B.Vüsal həmin qayğının Qazaxda daim hiss olunduğunu söyləyib. Fəaliyyətə başladığı ilk gündən şairlərə, aşıqlara, ziyalılara göstərdiyi qayğıya, verdiyi dəyərə görə rayon rəhbərliyinə minnətdarlığını bildirib. İlk gündən Qazaxda belə yubiley tədbirlərinin, ədəbi gecələrin, poeziya bayramlarının keçirilməsinin ənənə halını aldığını, Rüstəm Kamalın 60 illiyinə həsr olunmuş bugünkü yubiley tədbirinin də həmin ənənənin davamı olduğunu qeyd edib. R.Kamal haqqında ürək sözlərini bölüşən B.Vüsal onun hər zaman özünün, sözünün yerini bilən insan, ziyalı kimi qəlblərə yol tapdığını, örnək olduğunu söyləyib". O adam ki, haqqı deyir, haqqa bağlıdır, üstümüzdə haqqı olan haqq adamıdır" - deyən B.Vüsal R.Kamalın da məhz belə insanlardan, ziyalılardan olduğunu söyləyib.

Ağstafada fəaliyyət göstərən Hüseyn Arif Ədəbi Məclisinin sədri, şair Saqif Qaratorpaq çıxış edərək tədbir iştirakçılarını salamlayıb, yubilyarın ünvanına təbriklərini çatdırıb. S.Qaratorpaq R.Kamalın yazdığı hər essenin, məqalənin bir işıq effekti olduğunu diqqətə çatdırıb.

Bakı Dövlət Universiteti Qazax filialının Tədris və elmi işlər üzrə direktor müavini, riyaziyyat üzrə fəlsəfə doktoru, dosent Məmməd Yusifov R.Kamalın BDU-nun Qazax filialındakı fəaliyyətindən, kollektivin dəyərli ziyalı ilə olan tanışlığından söz açıb onun tələbələrin yaddaşında innovativ metodları tədrisə gətirən gözəl bir pedaqoq kimi qaldığını qeyd edib.

BDU Qazax filialının kafedra müdiri, professor Hüseyn Xəlilov çıxış edərək R.Kamalın tənqidçi, ədəbiyyatşünas alim, esse yazarı kimi Azərbaycan ədəbiyyatında özünəməxsus yeri olduğunu vurğulayıb.

Gəncədən yubilyarı təbrikə gələn şair İnqilab İsaq çıxış edərək Rüstəm Kamala ən səmimi ürək sözlərini və xoş arzularını çatdırıb. "Alimin böyüklüyü yalnız kitab yazmaq deyil, həm də oxucu tərbiyə etməkdir. R.Kamalın bütöv yaradıcılığı bu amal üzərində qurulub", - deyən natiq bunu onun qələmə aldığı esselərdə gördüyümüzü söyləyib.

Ağdaşdan yubilyarı təbrikə gələn AYB Ağdaş filialının sədri, şair Fəxrəddin Əsəd çıxış edərək tədbir iştirakçılarını salamlayıb, yubilyarı təbrik edərək xoş sözlərini çatdırıb. R.Kamal yaradıcılığından söz açan natiq onun esselərini oxuyarkən hər dəfə yeni bir nəfəs, yeni bir tapıntı gördüyümüzü qeyd edib.

Bakı Dövlət Universiteti Qazax filialının tələbələri Bəyaz Abdullayeva, Günel Eyyubova, Gülnar Xasayeva, Allahverdi Süleymanov Rüstəm Kamala həsr olunan şeirlərdən nümunələri və görkəmli ziyalıların onun haqqında söylədikləri fikirləri səsləndiriblər.

Gənc aşıqlardan Şahin Süleymanov "Dübeyti", Samir Allahverdiyev "Cəlili" aşıq havaları ilə yubilyara olan təbriklərini çatdırıblar.

Sonda yubilyar professor Rüstəm Kamal çıxış edərək onu təbrikə gələn, ünvanına xoş sözlər səsləndirən insanlara, tədbir iştirakçılarına özü və ailə üzvləri adından minnətdarlığını bildirib. Doğma torpağı olan Qazaxda yubiley tədbirinin yüksək səviyyədə təşkil olunmasına görə rayon rəhbərliyinə, Azərbaycan Yazıçılar Birliyinə, əziyyəti keçən insanlara razılığını ifadə edib. Dahi şəxsiyyətlər, ziyalılar yurdu Qazax torpağının yetirməsi olduğu üçün özünü şanslı hesab etdiyini bildirib. Bu torpağın yetirməsi kimi ünvanına söylənilən bütün sözlərin hər zaman üzərinə böyük məsuliyyət qoyduğunu və bunu əsərlərində göstərməyə çalışdığını qeyd edib.

**Mustafa RASİMOĞLU**
*AYB Qazax Bölməsinin ədəbi məsləhətçisi*